Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 29-36**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 29-36**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 29-36**

UOT 784:9:786.2

Afaq Aşumova, Kamilla Sədirxanova
sənətşünaslıq üzrə fəlsəfə doktorları, dosentlər
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi, 98
E-mail: musicland81@rambler.ru

VOKAL İFAÇININ REPERTUARINDA RUS ROMANSININ ƏHƏMİYYƏTİ VƏ KONSERTMEYSTER İLƏ İŞ ZAMANI ONUN İNTERPRETASİYA XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *romans, vokalçı, konsertmeyster, təfsir, təsvir, Rusiya, janr*

Vokalistin ilkin tədrisi zamanı konsertmeysterin rolu pedaqoji baxımdan məsulliyyətli və çətindir. Müğənninin rus vokal musiqisi ilə yaxınlaşmasında – rus romansı çox qiymətli material hesab olunur. Kiçik diapazon – böyük vokal imkanarı tələb etmir, təsvirlər sadə və anlaşılandır, çətin, dramatik, sətraltı mənalar ifadə olunmur. Bu sadə nümunələrdə ilkin ansambl bilikləri formalaşır.

А.Ф.Ашумова, К.Р.Садырханова

ЗНАЧЕНИЕ РУССКОГО РОМАНСА В РЕПЕРТУАРЕ ПЕВЦА, ОСОБЕННОСТИ ЕГО ИНТЕРПРЕТАЦИИ В РАБОТЕ ВОКАЛИСТА С КОНЦЕРТМЕЙСТЕРОМ

Ключевые слова: *романс, вокалист, концертмейстер, интерпретация, образ, Россия, жанр*

В начальном обучении вокалиста наиболее ответственна и сложна в педа-гогическом отношении роль концертмейстера. Русский романс является ценным материалом для приобщения начинающего певца к русской вокальной культуре. Небольшой диапазон не требует большой вокальной мобилизации, образы просты и понятны, не содержат сложных драматических подтекстов и перевоплощений. На этих простых примерах вырабатываются первые навыки ансамбля.

A.F.Ashumova, K.R.Sadirkhanova

SIGNIFICANCE OF RUSSIAN ROMANCE IN THE SINGER'S REPERTOIRE, PECULIARITIES OF HIS INTERPRETATION IN THE WORK OF THE VOCALIST WITH THE CONCERTMASTER

Key words: *romance, singer, concertmaster, interpretation, form, Russia, genre*

In base education of the vocalist the role of the concertmaster is most responsible and difficult in the pedagogical relation. Russian romance is a valuable material for familiarizing of the beginning singer with Russian vocal culture. The small range doesn't demand the big vocal mobilization, images are simple and clear, don't contain difficult drama implied senses and transformations. On these simple examples the first skills of ensemble are developed.

Rus musiqi mədəniyyətində romans janrının inkişafı, onun həvəskar və məişət mənşəli olmasına baxmayaraq, professional sənətin ayrılmaz hissəsini təşkil edir. Məhz XIX əsrdə rus romans janrı, opera janrında olduğu klassik formanı əldə etmiş olur. Vokal musiqinin müxtəlif istiqamətli bu iki janrı (yəni opera və romans) inkişaf prosesində bir-birinə təsir edərək, rus professional vokal məktəbinin formalaşmasında böyük rol oynamışlar. Həmin dövrki rus xalqının həyat tərzi, istək, arzu və düşüncələri, yüksək mədəniyyət və musiqi inkişafına meyl məhz romanslarda öz əksini tapmışdır. Lakin qeyd etdiklərimiz daha çox sadə və ümumiləşdirilmiş şəkildə təzahür olunmasına baxmayaraq, bu janrda yüksək bədii məna kəsb edən nümunələr yaratmaq mümkündür. Rus vokal intonasiyasının spesifik xüsusiyyətlərini hiss edən, rus romansını ifa etmək sənətinə sahib olan müğənni, daha mürəkkəb opera musiqisini ifa etməklə də böyük nəaliyyətlər əldə edə bilər, çünki, hər iki janr müəyyən mənada dövrün vahid üslubunu özündə əks etdirir.

Vokal ifaçının ilkin təlimində pedoqoji cəhətdən çox məsuliyyətli və çətin iş konsertmeysterin (ifaçını müşayiət edənin) üzərinə düşür. Əsər üzərində işləmənin ilkin mərhələsində konsertmeyster aparıcı rol oynayır, daha sonra son mərhələdə idarə edən funksiyasını daşıyır. Yəni müşayiətçi gah əsas, gah da köməkçi rolu daşımaq məcburiyyətindədir. Həmçinin təcrübəsiz, ifaçılığa yeni başlayan vokalçının fərdi xüsusiyyətlərinə diqqət yetirməli, lazım gələrsə ona yol göstərib, özünün fərdi ifadə tərzini axtarmağa, düzgün səmtə yönəlməyə imkan yaratmalıdır. Müşayiətçi ifaçıya ansamblı idarə etməyə, solistin ifaçılıq iradəsini göstərməyə (əsl musiqiçi məhz bu bacarığa sahib olmalıdır) imkan yaratmalıdır. Əsərin öyrənilməsi prosesində vokal ifaçısı olan tələbə, vokal

musiqisinin bütün əsas tarixi üslubları və janrları ilə tanış olmalıdır. Həmçinin tələbə geniş bir repertuarla tanış olub ona yiyələnməli və tamamilə fərqli əsərlərin təcəssümü (ifası) üçün düzgün musiqi vasitələrini seçmək bacarığına nail olmalıdır. Hər bir əsər özünəməxsusluğuna, bənzərsizliyinə baxmayaraq hər bir müəllifin yaşadığı dövrün xüsusiyyətlərini özündə daşıyır. Bu, müəyyən vasitələr kompleksinin tədbiqini eyni müəllifin müxtəlif əsərlərinə və ya onun müasirinin əsərlərində istifadəsini nəzərdə tutur. İfaçı dövrün müəyyən edilmiş ifadə xüsusiyyətlərini aşkar etməli dəqiqliklə müəllifin nəzərdə tutduğu fikri əks etdiməlidir, əks halda bəstəkarın ideyası təhrif ediləcəkdir. İfaçı müxtəlif üslublara dərindən yiyələnib və bilməlidir ki, məsələn rus romansını oxumaq üçün hansı xüsisiyyətlərə fikir verməli, və yaxud italyan opera ariyasını oxuyarkən nəyi bacarmalıdır. Vokal ifaçısı dərk etməlidir ki, müasir musiqi ifa üslubunun tələbatı nədir və yaxud qədim musiqinin interpretasiyasına necə yanaşmaq lazımdır. O, həmçinin vokal silsilənin ifası zamanı onun qarşısında qoyulan məqsədin nədən ibarət olduğunu, Vyana klassik bəstəkarlarının əsərlərinin ifasında hansı ifadə vasitələrinə üstünlük verməsini və qərbi-avropa romantiklarının vokal miniatürlərinin ifasının əsas xüsusiyyətlərini bilib onalrın düzgün təqdim olunmasına yiyələnməlidir. Qeyd etdiklərimiz əsas tarixi əhəmiyyət kəsb edən üslublardır. Onları bilməyən ifaçıdan tam mənada hərtərəfli ixtisaşçı ola bilməz. Müxtəlif üslublarla tanış olaraq vokal ifaçı, tədricən öz prioritetlərini müəyyən edir, ifa gücünün nəyə qadir olduğunu dərk edir, hansı üslub və janr ona daha yaxın olub və gələcək ixtisaslaşmasında aparıcı rol daşıyacağını özü üçün təyin edir. Hər bir dövr (musiqi cərəyanı) ifaçının qarşısında inkar edə bilməyəcəyi müəyyən tələbatlar qoyur və ifaçı onların öhtəsindən gəlməyə hazır olmalıdır.

Real tədris prosesində ifaçının tədricən musiqi üslublarını mənimsəməyə vaxt baxımından imkanı olmur. O, birinci kursa daxil olan kimi, müxtəlif üslublarla qarşılaşır və tələbədən vokal imkanlarının hərtərəfli inkişaf olunması tələb olunur. Beləliklə, üslub baxımından qarışıqlıq təhlükəsi ilə üzləşməkdən yan keçmək üçün

tələbə özü müstəqil olaraq və ya konsertmeysterin köməkliyi ilə onun ifa etdiyi əsərin hansı dövrə aid olduğunu təsəvvür etməyə və anlamağa çalışımalıdır. Əsas problemlərdən biri də, təhsil aldığı müddətdə ifaçının keçəcəyi əsərlərin çətinlik səviyyəsi üzrə düzgün bölüşdürülməsi məsələsidir. Zəngin vokal ədəbiyyatı içərisində ifa üçün elə əsərlər seçmək lazımdır ki, ifaçının vokal imkanlarına uyğun olsun. İfa zamanı bədii tərəfdən düzgün interpretasiya əsas meyyar kimi götürülməlidir, nəinki, hər hansısa epizodun texniki baxımdan öhdəsindən gəlib növbəti çətinliklərin daha yüksək pilləsinə keçmək. Əsərlərin düzgün seçimi olmalıdır. Hansılarda kı, tədrisin sistemləşdirilməsinin tədricən mürəkkəbləşməsi üslub diapazonunun genişləndirilməsinə uyğunlaşmalıdır. Kiçik həcm, sadə forma, obraz tamlığı,

aydın melodiya, sadə harmoniya, geniş olmayan registr və s. formal olaraq başlanğıc üçün nəzərdə tutulan əsərlərin xüsusiyyətləri kimi əsas götürülür.

Klassik əsərlər içərisində bu qeyd etdiyimiz tələbatlara çavab verən, eyni zamanda yüksək bədii məna kəsb edən, bir çox əsərlər mövcuddur. Hər bir halda həm ifaçı, həm də konsertmeystr əsərin öyrənilməsinə və məşqlərə keçməzdən öncə, ədəbi (mətni) mənbəni öyrənməli və musiqidə bunun təcəssümü, neçə həyata keçirmək yollarını təhlil edib, birlikdə ifaçılıq konsepsiyası üzərində düşünməlidirlər. İfaçılıq təhlili vokalist və müşayiətçinin birgə işinin ayrılmaz bir hissəsidir. Bədii mətnin təhlilindən başqa ifaçılar dəqiq musiqi təhlilini də etməlidirlər. Bu əsasən bəstəkarların daha mürəkkəb formalardan istifadə etdiyi zaman daha da zəruridir. Mürəkkəb formalara vokal musiqidə tez-tez rast gəlmək olar və bu hal əsasən mətnin məzmuni ilə bağlı olur. Bəstəkar şerin sözləri tam dolğunluğu ilə musiqidə əks etdirmək üçün adətən belə mürəkkəb formala üz tutaraq istifadə edir. Kiçik detalların bir-birinin ardınca təqdimatı ilə tədricən obrazın əks olunması baş verir. Konsertmeyster sanki ifanın son variantını əvvəlcədən duymalı, vokal ifaçını tədricən yönəltməli və daima onun özünəməxsus interpretasiyasini dinləyərək nəzərə almalıdır. Müəlliminin rəhbərliyi altında tələbə ilkin mərhələdən öz ifaçılıq texnikasını təkminləşdirərək, konsertmeyster ilə yaradıcı birlikdə maksimum fəal olmalıdır.

Tədris prosesinin ilk mərhələsində A.Varlamov, A.Alyabyev və M.Qlinkanın romanslarına müraciət oluna bilər. Bu o demək deyil ki, adları çəkdiyimiz bəstkarların mahnı yaradıcılığında çətinlik baxımından mürəkkəb əsərlərə rast gəlinmir və gələcəkdə vokal ifaçının repertuarından bu bəstəkarların adları silinəcək. Əksinə, onlar hətta tələbənin son kursuna qədər repertuarda möhkəmlənib daha da mükəmməlləşəcək. Ümumiyyətlə rus romansları müxtəlif çətinlik və mürəkkəblik səviyyəli musiqi əsərləridir. M.Qlinkanın romansları ilə tələbə buraxılış imtahanında ifaçılıq ustalığının hansı səviyyədə olduğunu göstərməlidir. Vokalist tələbə bu romansların sadəliyinə aldanmamalıdır, ən əsas əsərin tam bədii təfsirinə nail olmaqdır, cünki, bunlar daha mürəkkəb və kamil əsərlərin ifası üçün binövrə funksiyasını daşıyacaq əsərlərdir. İfaçı tədris prosesində dərk etməlidir ki, bu romanslar sadəliyinə baxmayaraq yüksək bədii məna kəsb edən əsərlərdir. Bunlarin düzgün təqdimatı üçün böyük ifaçılıq ustalığı tələb olunur. M.Qlinkanın və onun müasirlərinin romansları konsertlərdə dinləyicilər tərəfindən yüksək maraq doğuran, olduqca populyar və seviləndirlər. Həmçinin ifaçının gələcək fəaliyyətində uzun illər boyu onun repertuarına daxil ola bilən əsərlər sırasında ola bilərlər.

Beləliklə, A.Varlamovun romanslarının öyrənilməsinə başlayarkən, melodiyanın sədə yüngül olmasını və axıcılığı nəzərə almaq lazımdır. Melodiya insanın daxili aləminin müxtəlif vəziyyətlərini ifadə edə bilər. Rus romansna o

dövrün bütün geniş yayılmış janrları təsiri göstərmiş və onların xüsusiyyətləri romanslarda öz əksini tapmışdır. Məişətdə geniş yayılan rəqslər romaslrın janr əsasını təşkil edərək, onların ritmik xüsusiyyətlri müşayiətin əsası kimi götürülürdür. Buna misal kimi A.Varlamovun vals müşayiətli «На заре ты ее не буди» və balero ritmli müşayiət ilə «Белеет парус одинокий» romansları qeyd etdiyimiz sintezin baris nümunəsidir. A.Varlamovun romaslarının zövqlü bədii məna daşımasına baxmayaraq, burada müşayiət köməkçi mənasını daşıyır və sadə məişət musiqi ənənəsindən kənra çixmayaraq vokal mövzunun dolğun səslənməsini tabedir. Lakin bir çox romaslarda vokal partiyanın əvvəlində olduqca qeniş instrumental giriş verilib. Bu girişin rolu ondan ibarətdir ki, nəinki dinləyicini əsərin abu-havasına yönəltsin, həmçinin vokalisti əsərin ifası üçün daha da ilhamlandırsın. A.Varlamov çox yaxşı vokal müəllimi olmuşdur. İlk rus «İfaçılıq məktəbi» məhz A.Varlamova məxsusdur. Onun romasları ilkin mərhələdə olan ifaçı üçün əvəzolunmaz bir vəsaitdir. Bəstəkarın melodiyalarının gözəlliyi və alicənablığı oxumaq həvəsini güçləndirir və musiqi duyumunun inkişafına təkan verir. Sadəlik ifaçıya səsinin bütün imkanlarını açmağa və dolğun hiss etməyə imkan yaradır. Lakin üslub diapozonu baxımından lirik obrazlar çərçivəsindən kənara çıxmamaq şərti ilə.

Romanslar müəllifi olan digər bəstəkar A.Alyabyevin yaraıcılığına nəzər salmaq bu janr haqqında və onun imkanlarının genişlənməsinə dair fikirlərin formalaşmasına köməklik edəcək. A.Alyabyev lirikanın sərhədlərini genişləndirir. Onun romansları müxtəlif yönlü olması, parlaq təzadlığı, aktiv dramatik inkişafı ilə secilir. Bəstəkarın maraq dairəsinə daha cox faciəvi məqamları olan sərt səhnələr aiddir. Ona Varlamov romaslarının tamlığı və dəqiqliyi xas deyil. Onun mövzuları impulsiv, dəyişkənliyə meylli və tez-tez müxtəlif psixoloji vəziyyətlərə keçid alır. Müşayiətin də rolu daha gücləndirirlir. A.Alyabyev müxtəlif janrlı – opera, simfonik, kamera əsərlərinin müəllifi olaraq müşayiətin rolunu başqa cür qiymətləndirir. Bəstəkarın əsərlərində müşayiət «baş verənlərin daha aktiv iştirakçısıdır», müşayiət sadəcə əsas fikri əks etdirən vokal mövzunun daha dolğun səslənməsi üçün binövrə funksiyasını deyil, mürəkkəb «müşayiət kompleksini» təşkil edir. A.Varlamovun romanslarının ifası vokalistin səsi və təsvir edəcəyi personajın xarakteri ilə uyğunlaşan yumşaq tembr rəngarəngliyini tələb edir. A.Alyabyevin romanslarının müşayiətində isə parlaq rəngarənglik tələb olunur. Məhz onların vasitəsi ilə sanki baş verəcək hadisələr əvvəlcədən təsvir olunur. Onların ifası zamanı fraqmentli və parçalanmış ifadə tərzindən uzaq durmaq lazımdır. Vokalist fortepiano partiyasında verilən hər bir dəyişikliyinə (xüsusilə intermediyalı bağlayıcı keçidlərdə) fikir verməlidir. Fortepianoda baş verilənlər bilavasitə vokal mövzunun dəyişilməsini hazırlasyır.

M.Qlinkanın yaradıcılığından başlayaraq rus musiqisində yeni dövr başlayır. Məhz M.Qlinka mövcud olan janrların çərçivəsini genişləndirmiş və

bu janrlara klassik ifadə vermişdir. Onun rus mədniyyətində əsas nəaliyyəti, missiyası ondan ibarətdir ki, həmin dövrün əsas janrının yaranması-rus opera janrının yaranması bilavasitə Qlunkanın adı ilə bağlıdır. Bəstəkar rus mahnı janrının ən əsas xüsusiyyətləri- intonasiya zənginliyini və özünəməxsusluğu, professional italyan mahnı ənənələrinin incəlikləri ilə sintezinə nail olmuşdur. M.Qlinkanın yaradıcılığında melodik vokal üslubu yaranmışdır ki, bu üslubu «rus belkantosu» adlandırmaq olar. Onun əsərləri içərisində elə nümunələr var ki, vokal ifaçıdan maksimum ifa ustalığı tələb olunur. O hesab edirdi ki, vokalist nəinki xarici musiqi nümunələri əsasında, həmçinin rus musiqi nümunələri ilə püxtələşməli və öz vokal ənənələrini yaradaraq imkişaf etdirməlidirlər.

M.Qlinka bütün yaradıcılığı boyu romans janrına müraciət etmişdir. Əvvəlki dövrlərdə rus romansında janr müxtəlifliyi mövcud idi. Həmçinin məişət rəqs musiqisinin, opera, xalq mahnılarının təsiri burada hiss olunurdu. Bunlar müxtəlif emossional vəziyyətləri əks etdirirdilər, lakin fərdi xüsusiyyətləri ilə seçilmirdilər. Burada mövzu, hadisələr ümumiləşdirilmiş şəkildə əks olunurdu. Musiqi vasitələri də buna uyğun verilirdi. Öz sadəliyinə görə çox geniş yayılmış, əsas janr xüsusiyyətlərini əks etdirən, müəyyən tipli müşayiət növləri mövcud idi. M.Qlinka romansın əsas xüsusiyyətlərini - yəni musiqi vasitələrinin sadəliyi, janrlılıq, müşayiətdə özünəməxsusluq və s. saxlayaraq musiqi ifadəsinin daha mükəmməlliyinə nail olmuşdur. Romansın janr əsasını bəstəkar fon kimi istifadə edir. Bu halda fərdi obraz daha qabarıq şəkildə açılır. Bütün musiqi vasitələri romansın əsas ideyasının açılmasına yönəlir və hər bir xırdalığın ümümilikdə özünəməxsus yeri vardır. M.Qlinkanın vokal musiqisində melodiya və səsin rassional olaraq üstünlüyü hiss olunur. Onun əsasında, artıq müşayiətin müəyyən mövzusu yeni keyfiyyətdə, təkrar kimi qəbul olunmayaraq verilir. Qlinkanın romansları forma baxımından vokal miniatürün ən sadə nümunələrini təşkil edir. Onlar müxtəlif şairlərin mətnlərinə yazılmışlar. İfaçı musiqinin təkrar oluması lakin mətnin dəyişildiyi zaman obraz-məna baxımında ən xırda nüanslara belə fikir verməlidir. Qlinka məlum olduğu kimi, özü gözəl fortepiano ifaçısı və öz romanslarının müşayiətçisi olmuşdur. Məhz o, konsertmeyster ifasının əsas xüsusyyətlərini müəyyənləşdirmiş və müşayiət professionallığının əsas meyyarlarını formalaşdırmışdır. Qlinka müşayiətin əsl sənət tələb edən, ifaçılığın bir hissəsi olmasını və yülksəklərə qaldıran nümayəndələrdən biri olmuşdur. Onun romanslarının ciddi klassik forması, quruluşu bu janrı həvəskar səviyyədən professional (peşəkar) səviyyəyə qaldırmışdır. Qlinkanın müəllif olaraq mükəmməl müşayiəti isə romansın konsert səhnəsinə qədər ucalmasına zəmin yaradır. Beləliklə, tədricən rus fortepiano, ifaçılıq və konsertmeyseter sənətinin əsası qoyulmuşdur.

Romans janrının inkişafı M.Qlinkadan sonrada da inkişaf etmişdir. Onun

kiçik müasiri olan dahi bəstəkar A.Darqamıjski öz yaradıcılığında bu janrı özünəməxsus şəkildə əks etdirir. Yaradıcılığı boyu digər rus bəstəkarları kimi, A.Darqamıjski romans yaradarkən, geniş yayılmış məişət musiqi formalarına istinad edirdi. Lakin bəstəkarı, ilk növbədə musiqi quruluşunun mükəmməl və klassik dəqiqiliyi və melodik xətlərin məntiqli tamamlanması yox, danışıq mətninin musiqidə təzahürü maraqlandırırdı. A.Darqamıjski gözəl portret xarakteristikası yarada bilirdi. Məhz buna görə onun romanslarını müxtəli insan obrazlarının qalereyası adlandırmaq olar. Burada müxtəlif yaşlı və təbəqədən olan insan obrazları əks olunmuşdur.

Rus romansı təcrübəsiz vokal ifaçının rus vokal mədniyyətinə yiyələnmək üçün ən gözəl vəsaitdir. Bir tərəfdən romans janrı ifa üçün sadə və rahatdır, lakin digər tərəfdən yüksək vokal ənənələri ifadə edən bir musiqi nümunəsidir. Burada vokal ifaçıdan səmimilik, vokal çeviklik, parlaq ifadə tərzi, sözlərin aydın tələffüsü və emossional dolğunluq tələb olunur. Məhz romanslarda insan hisslərinin bütün çalarları lirik həyəcanlarda öz əksini tapır. Romanslar əsasən həvəskar ifaçılıq üçün nəzərdə tutulduğuna görə, onun üslubu olduqca sadə və ifa üçün səmərəlidir. Geniş olmayan diapazon, obrazların sadə və aydın olması vokal ifaçı üçün rahat mühit yaradır. Lakin bu o demək deyil ki, burada ciddi musiqi və bədii mənalılıq yoxdur. Əksinə, vasitələrin sadəliyi, vokal-texniki çətinliklərin olmaması, səsin dolğun, sərbəstliyi, ideal kantilena, səslənmənin axıcılığı, dinamik nüanslardan düzgün istifadə və onların mətnin sözləri ilə qarşı-qarşıya qoymaq bacarığı vasitəsi ilə mükəmməl ifaya nail olmaq imkanı yaradır. Bu sadə misallar əsasında ilk «ansambl» bacarıqları yaradılır. Nəticədə obrazın açılması üçün musiqi-texniki iş sanki, təməl daşı olmalıdır. Bu janrda yüksək peşəkarlıq, öz hisslərini əmin edərək, ürəyin səsini, daxili aləminin vəziyyətini ifadə etmək bacarığı ilə əks olunur. İlk nümunələrdən vokal ifaçı obrazın tərənnümü üçün hansı ifa üslubundan istifadə etməsini bilib onu əks etdirməyə çalışmalıdır. Romansların süjet müxtəlifliyi, mövzu və janr rəngarəngliyi vokal ifaçılığa yeni başlayan müğənninin hərtərəfli inkişafına olduqca böyük təsir göstərir.

ƏDƏBİYYAT

1. Анализ вокальных произведений. (Учебное пособие). Ред.О. Коловский. Л.:Музыка, 1988, 352 с.

2. Аспелунд Д. Развитие певца и его голоса. М.-Л.: Музгиз, 1952, 191с.

3. Барсов Ю. Вокально-исполнительские и педагогические принципы Глинки. Л.: Музыка, 1968, 102 с.

4. Васина-Гроссман В. Русский классический романс XIX в. М.: АН СССР, 1956, 352 с.

5. Васина-Гроссман В. Вокальные формы (Музыкальные формы и жанры). М.: Музгиз, 1963, 35 с.

6. Горошко Н. Формирование художественных критериев исполнительского мастерства пианиста в концертмейстерском классе (на примере камерно-вокального творчества русских композиторов XIXв.). Автореферат. Магнитогорск, Магнитогорская Государственная Консерватория, 1999, 21 с.

7. Листова Н. Варламов А. Его жизнь и песенное творчество. М.: Музыка, 1968, 263 с.

8. Машевский Г. Вокально-исполнительские и педагогические принципы А.С.Даргомыжского (В помощь педагогу-музыканту). Л.:Музыка, 1976, 64 с.

9. Назаренко И. Искусство пения. История, теория, практика. М.-Л.: Музыка, 1948, 382 с.

10. Степанидина О. Некоторые проблемы взаимосвязи вокальной и фортепианной партий в русском романсе. Саратов, Саратовский университет, 1983, 40 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 27.11.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.11.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.